

**AYDIN ARAZ**

**1982-ci il yayın əvvəlində Araz qırağında - Culfa şəhərində anadan olub.**
**2002-ci ildə oxuduğu Təbriz universitetinin sosioloji fakültəsində ”Payız” ədəbi dərnəyinin təməlini qoyub. ”Payız”da bütün dillərdə şeir oxumağa izin verilirdi. ”Barama”, ”Bayquş” saytlarında şeirləri yayımlanıb.**
**İlk şeir kitabı ”Yasaq sözcüyüm” adıyla 2007-ci ildə işıq üzü görüb. Az zaman ərzində satılıb qurtaran kitab ikinci dəfə çap olunub. ”Adamlar gedir, yoxsa qayıdır” adıyla 2013-cü ildə çap edilən kitabı sayca ikincidir.**
**Hazırda üçüncü şeir toplusunu çapa hazırlayır.**

**İlham Qəhrəman**

### RƏSSAMIN ÇƏKDİYİ HƏSRƏT

Biz bir rəssamın çəkdiyi həsrətik, gülüm,
Səsimiz,
Sükutumuz,
Və sevgimiz!
Bir uşağın gizli siqaret çəkdiyi qədər təhlükəlidir!
Bizi körpəlikdə qara bələyə bələyiblər, gülüm.
Və beşiyimizdə tabut məşqi öyrədiblər bizə.
Öz dırnaqlarımızla belə
Öz dərimizi soyublar
Yalan qışqırıqlarımızla kefləndiriblər bizi
Soyuq tərimizi,
torpağımız udubdur
Sağımızda xəncər belindəkilər,
Solumuzda qulağı tüklülər
San[1] gedirlər, gülüm.
Və arada əzilirik biz
Bir yumruq kimi...
Belədir bizdə əzginlik.

Dünənimizi
Xəmir kimi oynadırlar əllərində...
Bu günümüzü kündələyirlər
Sabahımızı yapmaq üçün.
Biz burada
gülüşlərimizi yamsılamalıyıq onlardan,
və ağlamaqlarımızı
gizlətməliyik, gülüm,
Qorxu çiçəyi göyərir boğazımızdan.

Əllərimiz zəncirlərlə adaxlanıb sanki.
yaralarımız şor duzlaqların kəbinində...
biz həsrət notlarıyıq, gülüm,
yazılmışıq alnımızın qırışlarına.

### KÖÇƏRİ QUŞU

Sən köçəri quş idin,
qondun şeirlərimə.
Bir yaz günündə
şəklin elanlar kimi vuruldu
gözlərimin xiyabanında divarlara...
Sən
duyğu ağacımın islaq budaqlarında
yuva qurdun,
Adın
şeirlərimin ağırlığı oldu.
Və saçların
qafiyə kimi qəzəllərimdə sovruldu,
Amma, bir payız yağışı
qopardı gözlərimdən səni
Və şəklini
hey...
heyif...
unutmuşdum.
Sən köçəri quşusan
bir gün qonmuşdun sətirlərimə,
bir gün uçacaqdın varlığımdan.
Uç...

* * *

Qurumuş roz[1] çiçəkləri
Xaça çəkilmiş divarda
Tərsə asılı
(yuxarıdakı sətirləri yozuram)
Sevgi işgəncədir.

* * *

Susma...
oyan!
və susuz kağızların dodağına
şeir çilə, şair!
Tanrını qonaq çağır iş otağına
və yaz -
Yaz ki, anlamlar göyündə adaxlansın!
Sözcüklərin toyu başlansın!
Yaz və
yurdsuzluğunu çək küləyin üzünə
Torpaq kimi dol gecənin gözünə
Sonra tanrının şərəfinə,
Neçə şeir qoş burax havaya!

* * *

Bir avtobusdur şair,
Sözcük daşıyır
Hər sözcük bir sərnişin
və şeirlər dayanacaqlardı.
Hər şeir bir sözcüyün sonu

Hey mənim yasaq sözcüyüm,
sevdiyim,
QAL!
Dayanacaqsız sərnişinim,
Səni ömür boyu daşıyacağam.

* * *

Ay dolu,
mən dəli!
Gecənin sümükləri
səhərə qalmaz!

* * *

Mədh edirəm səni
Qızarırsan
İlkin alma[2] kimi
Vəsvəsə oluram yeni bir günaha.

* * *

Bir təyyarə ələ keçirə bilsəydim,
Bir günlük
Qalxıb da neçə qucaq
bulud dərib gətirərdim
doğum gününə.

* * *

Yel
sənin donunu geyib
rəqs edir
balkonda.

* * *

Gözəl aldanışıydı həyat
Kiçik uğurlarla
Böyük uğursuzluqlara
çəkildi ayağımız.

* * *

Ovuclarıyla
Hər səhər Günəşi
pəncərənizin önünə qaldıran,
Hər axşam Ayı
pəncərənizin önünə endirən,
Oğlanam mən.
Tanıya bilmədinizmi?!

* * *

Biz fərqli varlıqlarıq, balığım,
Biz aşiq olanda
Özümüzü dənizə vururuq,
Sizsə quruluğa.

* * *

Rəsul Yunana
Yadından nə tez çıxartdın
O sevgili günlərimi?!
Nədən belə rahat atdın
O sevgili günlərimi?!

Məktublara od vurubsan,
Roz gülləri qurudubsan,
Mən uduzdum, sən udmusan
O sevgili günlərimi.

Nə çətin gətirdik ələ,
Sevib dedim azdır hələ.
Buraxıb da verdin yelə
O sevgili günlərimi.

Qapını bağlayacağam,
Darıxıb ağlayacağam.
Albomda saxlayacağam,
O sevgili günlərimi.

### ARAMIZDA

Aramızda
Ucaltdığımız Çin divarı,
Aramızda
Ucaltdığımız Berlin divarı,
Aramızda Araz.

Aramızda sarı güllər budağı
Aramızda - hər nə ayırır bizi
biri-birimizdən!

* * *

Dünya dolanır başıma
Dünyanın əziziyəmmi mən?!
Yoxsa sərxoşam.

* * *

Mənə sarı gəlmə,
Qorx!
Baxma gözlərimə,
Beynimdə bomba yerləşdiriblər sanki
Elektrik gözlərim tərpənsə əgər
Partlaram birdən.
Mənə sarı gəlmə,
Əllərini vurma saçlarıma,
Bəlkə bir dinamitin zaminidirlər.
Yanımda çox durma saatlı bir bombayam bəlkə,
hər ləhzə təhlükəm artır mənim.
Get!
Qal - getmə,
aparma ayaqlarını,
iş işdən keçibdir daha
getsən mina kimi partlayacam...

---

*1-hərbçilərin nizami keçidi*

*1-rəng, dodaq boyası*
*2-Adəmlə Həvvanın cənnətdən qovulmasına işarədir*